**Şəmkirdə fəaliyyət göstərən alkoqolsuz içki istehsalı müəssisəsində aşkarlanan nöqsanlara dair məlumat**

**(10 iyul 2024)**

Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən Şəmkir şəhəri, Ş.M.Xiyabani küçəsi 7 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Məmmədov Yusif Sədi oğluna məxsus alkoqolsuz içki istehsalı müəssisəsində keçirilmiş plandankənar yoxlama zamanı sanitar norma və qaydaların, qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinin pozulduğu aşkar edilib.

Yoxlama zamanı başqa istehsalçılara məxsus butulkaların yığılaraq yenidən istifadə edildiyi, habelə məhsulların etiket məlumatlarında istehsalçının qeyd edilmədiyi müəyyən olunub. Müayinələrin aparılması məqsədilə istehsal olunan məhsullardan nümunələr götürülərək Qida Təhlükəsizliyi İnstitutunun müvafiq labarotoriyalarına təqdim olunub.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq sahibkar barəsində inzibati protokol tərtib olunub, müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.